DOI: https://doi.org/10.36719/2706-6185/23/59-64

**Aytac Alməmmədova**
Bakı Dövlət Universiteti
magistrant
almmmdovaaytac@gmail.com

# DÜNYA TİCARƏT TƏŞKİLATINDA MÜBAHİSƏLƏRİN HƏLLİ SİSTEMİ

**Xülasə**

Geniş şəkildə qəbul edilir ki, DTT sazişinin çoxtərəfli ticarət sisteminin gücləndirilməsinə verdiyi töhfə Mübahisələrin Həlli Anlaşması (razılaşma) vasitəsilə mübahisələrin həlli üçün effektiv mexanizmin yaradılması ilə əhəmiyyətli dərəcədə artırılıb. Razılaşma əvvəlcədən mövcud olan GATT 1947 sistemində mexanizmin kvazi məhkəmə xarakterini gücləndirən bir neçə yeni xüsusiyyət təqdim etdi. Bunlara mübahisələrin həlli üçün açıq vaxt çərçivələri, şikayət edən tərəfin tələbi ilə panelin demək olar ki, avtomatik olaraq yaradılması hüququ, konsensusla qəbul edilməməsi barədə qərar qəbul edilmədikdə panel hesabatlarının avtomatik qəbulu ("mənfi konsensus qaydası") daxildir. Panel hesabatlarından şikayətləri dinləmək üçün daimi Apellyasiya Qurumunun yaradılması və panel və Apellyasiya Hesabatlarının həyata keçirilməsi üçün daha güclü prosedurlar, o cümlədən qisas hüququ və müəyyən hallarda çarpaz cavab tədbirləri ilə bağlı xüsusi qaydalar. Bu xüsusiyyətlərə görə razılaşma istənilən beynəlxalq təşkilatda mövcud olan ən sürətli və effektiv mübahisələrin həlli sistemini təmin etmişdir. Yeni çərçivədə, təxminən səkkiz il ərzində çox məhdud müddət ərzində panellər və Apellyasiya orqanı tərəfindən təsirli miqdarda hüquqşünaslıq işlənib hazırlanmışdır.

Bu araşdırmada Dünya Ticarət Təşkilatında mübahisələrə baxılmasının mərhələləri ayrı-ayrılıqda təhlil edilmiş, mübahisələrə baxılmasının normativ əsasını təşkil edən sənədlər, sazişlər və müqavilələr təfsir edilmiş, mübahisə predmeti olan bir neçə iş araşdırılmış və qərarların icra edilməsi prosesi ətraflı şəkildə öz əksini tapmışdır.

***Açar sözlər:*** *Dünya Ticarət Təşkilatı, GATT, DTT, Mübahisələrin Həlli Orqanı, Panel, Apellyasiya Orqanı*

**Aytaj Almammadova**
Baku State University
master student
almmmdovaaytac@gmail.com

## The dispute settlement system of the wto

**Abstract**

It is widely recognized that the contribution of the DTT Agreement to strengthening the multilateral trading system has been greatly enhanced by the establishment of an effective mechanism for the settlement of disputes through the Dispute Settlement Understanding (the Agreement). The agreement introduced several new features in the pre-existing GATT 1947 system that strengthened the quasi-judicial nature of the mechanism. These include open time frames for dispute resolution, the right to establish a panel almost automatically at the request of a complaining party, and the automatic adoption of panel reports unless a consensus decision is reached (the "negative consensus rule"), the establishment of a permanent Appellate Body to hear appeals from panel reports, and stronger procedures for the implementation of panel and Appeal Reports, including specific rules regarding the right to retaliation and cross-replies in certain cases. Because of these features, the Agreement has provided the fastest and most effective dispute settlement system available in any international organization. Under the new framework, an impressive

amount of jurisprudence has been developed by panels and the Appellate Body in a very limited time span of about eight years.

In this study, the stages of handling disputes at the World Trade Organization were analyzed separately, the documents, agreements and contracts that constitute the normative basis for handling disputes were interpreted, several cases that were the subject of disputes were examined, and the process of implementing decisions was reflected in detail.

***Keywords:*** *World Trade Organization, GATT, WTO, Dispute Settlement Body, Panel, Appellate Body*

## Giriş

Dünya Ticarət Təşkilatının mübahisələrin həlli sistemi qaydalara əsaslanan çoxtərəfli ticarət sisteminin ən mühüm elementlərindən biridir. DTT-nin digər beynəlxalq sistemlərdən əsas fərqi onun tərəfindən qəbul edilmiş qərarların məcburi xarakter daşımasından ibarətdir. Dünya Ticarət Təşkilatının mübahisələrin həlli sistemi uzun tarixi inkişaf yolu keçmişdir. Bu inkişaf yolu öz başlanğıcını GATT-ın yaranmasından götürmüşdür. GATT özünəməxsus şəratidə yaradılmışdır. Belə ki, XX əsrin 30-cu illərinin əvvəllərində baş vermiş iqtisadi böhran və eləcə də, İkinci Dünya Müharibəsinin dövlətlərin iqtisadiyyatına ağır təsir edən dağıdıcı nəticələri, dövlətləri bu sahədə danışıqlara getməyə və iqtisadi təhlükəsizliyin təmin edilməsi məqsədi ilə beynəlxalq mexanizm formalaşdırmağa bir növ məcbur etdi. Müvafiq şəraiti nəzərə alan dövlətlər bu sahədə münasibətləri tənzim etmək üçün Beynəlxalq Ticarət Təşkilatı yaratmaq qərarına gəldilər. Beynəlxalq Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi iki mühüm strukturdan ibarət olan dünya iqtisadi sisteminin üçüncü həlqəsini təşkil etməli idi. Xüsusilə vurğulamaq lazımdır ki, Beynəlxalq Ticarət Təşkilatı Dünya Ticarət Təşkilatı ilə eyniyyət təşkil etmir (Key issues in WTO: Dispute Settlement, 2000). Beynəlxalq Ticarət Təşkilatının yaradılması məsələsi 1946-1947-ci illərdə London və Cenevredə keçirilən konfransların müzakirə predmeti olmuş və ECOSOC-un rəhbərliyi ilə keçirilən 1947-ci il Cenevre konfrasında isə Beynəlxalq Ticarət Təşkilatının Nizamnaməsi hazırlanır və Havana konfransında (1948) yekunlaşdırılır. Beynəlxalq Ticarət Təşkilatının Nizamnaməsi (Havana Xartiyası) 50-dən çox dövlət tərəfindən imzalanır. Lakin Havana Xartiyası ABŞ-da çox şiddətli hücuma məruz qaldı və Senatdan keçmək imkanı yox idi. Bu səbəbdən, baxmayaraq ki, Havana Xartiyası 50-dən çox dövlət tərəfindən imzalanır, lakin Amerikanın bu mövqeyinə görə çox dövlət tərəfindən ratfikasiya olunmur. Amerika Birləşmiş Ştatları müvafiq nizamnamədən mal ticarəti ilə bağlı bəzi qaydaları çıxardı və onunla ticarət müqavilələri olan bütün ölkələri Tariflər və Ticarət üzrə Baş Saziş (GATT) başlığı altında müvəqqəti tədbir kimi bu qaydaları qəbul etməyə dəvət etdi. Havana konfransda təmsil olunan 23 dövlət, o cümlədən ABŞ, Kanada Böyük Britaniya, Fransa ilə yanaşı, Hindistan, Braziliya və digər inkişafda olan dövlətlər beynəlxalq iqtisadi əlaqələrin qarşısında ciddi maneə olan müharibəyə qədərki dövrün tarif dərəcələrinin qarşılıqlı olaraq aşağı salınması haqqında razılığa gəldilər. Bütün razılaşdırılmış tarif güzəştləri ilə birlikdə ticarətin liberallaşdırılması üzrə qaydalar Tarif və Ticarət üzrə Baş Saziş adı ilə (General Agreement on Tarifs and Trade-GATT) müvəqqəti əsasda 1948-ci il yanvarından qüvvəyə minir (Marceau, 2000). GATT ilkin variantda Beynəlxalq Ticarət Təşkilatının yaradılmasına qədər müvəqqəti razılaşma kimi nəzərdə tutulsa da, Beynəlxalq Ticarət Təşkilatını yaratmaq mümkün olmadığı üçün Dünya Ticarət Təşkilatı təsis edilənə kimi beynəlxalq ticarət münasibətlərini tənzimləyən əsas normativ-institusional sistem olaraq qalır və 1948-ci ildən 1994-cü ilə kimi beynəlxalq ticarətin əsas beynəlxalq hüquqi tənzimetmə vasitəsi kimi çıxış etmişdir. GATT çoxtərəfli ticarət sazişi funksiyasına malik olaraq yeni əlavələri ilə birlikdə beynəlxalq ticarət məcəlləsi funksiyasını yerinə yetirmişdir. GATT-ın iştirakçısı olan dövlətlərlə yanaşı qeyri-üzv dövlətlər də əksər halda daxili qanunvericilik normalarını beynəlxalq ticarət hüququnun (GATT) normalarına uyğunlaşdırmaq məcburiyyətində qalmışlar ki, bu da GATT-ın tənzimetmə sistemindəki əhəmiyyətindən xəbər verir. GATT-1947-nin əsas mətni 1964-cü il dəyişikliyi ilə 4 hissədə təsbit edilən 38 maddədən ibarət olaraq (GATT-ın tətbiq edilməsi haqqında Protokol istisna olmaqla) GATT 1994-ü formalaşdırmışdır (Sadıqov, 2008: 389).

GATT-1947 sadəcə razılaşma funksiyasını daşıyırdı və hər hansı mexanizmə, instituta malik deyildi. Əks halda, yəni GATT-1947 instituta malik olsa idi, beynəlxalq təşkilata çevrilər və bu zaman Amerika Senatının təsdiqini əldə edə bilməzdi. GATT-1994 GATT-1947-dən fərqli sənəddir. GATT-1994 GATT-1947-nin təkmilləşdirilmiş, dəqiqləşdirilmiş variantıdır. Uruqvay raundunda GATT-1994-ün meydana gəlməsi GATT-1947-nin zəif tərəflərini aradan qaldırmaq zərurəti ilə bağlı olmuşdur. Belə ki, GATT-1947-nin yalnız bir hissəsi məcburi xarakteri daşıyırdı və üzv dövlətlərin qanunvericiliyi GATT-1947-nin normaları qarşısında üstünlüyə malik idi; GATT-1947-nin müxtəlif maddələri mətnin başa düşülməsi baxımından müxtəlif qaydada təfsir oluna bilərdi və buna görə də. nümunəvi təfsirə zərurət yaranırdı; GATT-1947 vahid hüquqi rejim formalaşdıra bilməmişdi; kifayət qədər struktura malik olmadığı üçün beynəlxalq ticarətin “tənzimləyici” funksiyalarını da təmin edə bilməmişdi; GATT-1947 çərçivəsində mübahisənin həlli mexanizmi kifayət qədər mükəmməl deyildi və qərar təsdiq olunan zaman, məğlub olan tərəf konsensusdan istifadə etməklə onun əleyhinə çıxarılmış qərardan imtina edə bilərdi.

GATT-ın tarixində köklü dəyişiklik, şübhəsiz ki, Uruqvay raunduna (1986-1994) təsadüf edir. Uruqvay raundu GATT çərçivəsində həyata keçirilən çoxtərəfli ticarət danışıqlarının 8-ci raundu olaraq Dünya Ticarət Təşkilatının 1995-ci il yanvarın 1-dən fəaliyyətinin başlanğıcını qoyur. Uruqvay raundunun sazişlər paketi təqribən 50 çoxtərəfli sazişi və Dünya Ticarət Təşkilatının təsisi haqqında sazişləri əhatə edir. Bununla da, dünyada iqtisadi təhlükəsizliyin təminatlarından başlıcası olan Dünya Ticarət Təşkilatının əsası qoyulmuşdur (Bello, 90).

DTT-nin mantrası ondan ibarətdir ki, o, “üzv tərəfindən idarə olunan təşkilatdır”. Bunun mənası odur ki, qərarvermə prosesində təşkilatın orqanlarının orda olmasından və ya muxtar səlahiyyətlərinin olmasından aslı olmayaraq bütün qərarlar müstəsna olaraq “Razılığa gələn Tərəflərin” əlində idi. Bu, mübahisələrin həlli sisteminə necə təsir edirdi? Yuxarıda qeyd etdiyimiz kimi başlanğıcda mübahisələrin vahid  həlli sistemi mövcud deyildi (Yerxa, 2000: 20).

DTT çərçivəsində mübahisələrin həlli sisteminin başlanğıcı “Tədqiqat qrupunun” yaradılması ilə qoyulmuşdur deyə bilərik.  Belə ki, GATT çərçivəsində razılığa gələn tərəflər mübahisə olduqda “tədqiqat qrupu” yaratmaqla mübahisəni həll etməyə səy göstərmişlər. Zaman keçdikcə bu  “xüsusi qrup”, daha sonra isə “panel” adını daşımışdır.

“Tədqiqat qrupu”  danışıqlar vasitəsilə mübahisənin həll edilməsinin ən yumşaq formasını təşkil edirdi, “xüsusi qrup” özündə mediasiyanın, “panel” isə bir növ arbitrajın xüsusiyyətlərini daşıyırdı, lakin o arbitraj deyildi. Sözügedən panelin qərarları (hesabatları) arbitrajın qərarları kimi məcburi deyildi və yalnız “Müqavilə tərəflərinin” müsbət konsensusu olduqda qəbuledilən hesab edilirdi. Həmin dövrdə panel bir növ razılaşdırıcı orqan idi və o, arbitraj deyil, ən yaxşı halda “barışdırıcı orqan” (conciliation) sayıla bilərdi. Panel də, barışdırıcı orqan kimi mübahisəyə baxır və qüvvədə olan qanunvericiliyə əsasən tövsiyələr hazırlayırdı. Lakin müvafiq tövsiyələr məcburi xarakter daşımırdı və mübahisə tərəfləri öz iradələrinə uyğun olaraq onları qəbul və ya rədd edə bilərdilər (Abi-Saab, 2000: 20).

1994-cü ildə Mərakeş Nazirlər Konfransında DTT-nin yaradılması ilə bağlı baş verənlər çox mühüm keyfiyyət dəyişikliyinə səbəb oldu. Belə ki, əgər bu dövrə qədər panelin tövsiyələrinin qəbul edilməsi üçün tərəflərin müsbət konsensusu tələb olunurdusa, müvafiq konfransdan sonra isə panelin hesabları avtomotik olaraq qüvvətə minirdi və yalnız həmin qərarının icrasının dayandırılması üçün tərəflərin mənfi konsensusu tələb olunurdu. Başqa sözlə desək, artıq panelin qərarlarının qüvvəyə minməsi ilə tərəflərin razılığa gəlməsi arasındakı aslılıq nisbətən azalmışdı (Peter Van Den Bossche, 2000: 20).

Mübahisələrin həlli çoxtərəfli ticarət sisteminin mərkəzi sütunudur və DTT-nin qlobal iqtisadiyyatının sabitliyinə unikal töhfəsidir. Mübahisələrin həlli vasitəsi olmadan qaydalara əsaslanan sistem daha az təsirli olardı, çünki bu halda qaydaların icrası mümkün olmazdı. DTT-nin proseduru qanuna uyğundur və bu, ticarət sistemini daha təhlükəsiz və proqnozlaşdırıla bilən edir.

DTT mübahisələrin həlli sisteminin əsas məqsədi mühakimə yürütməkdən ibarət deyildir, müvafiq sistemdə prioritet məsələ mübahisləri danışıqlar əsasında həll etməkdən ibarətdir. DTT tərəfindən elan olunmuş 2008-ci ilin yanvar ayına qədər olan statistikaya əsasən 369 işdən yalnız

136-sı tam panel prosesinə çatmışdır. Qalanların əksəriyyəti ya "məhkəmədən kənar" qaydada həll olunmuş, ya da 1995-ci ildən bəri uzunmüddətli məsləhətləşmə mərhələsində qalmışlar (Yerxa, 2000: 20).

DTT-də mübahisələrə baxılması ədalətlilik, çeviklik, effektivlik və qarşılıqlı qəbul edilənlilik prinsiplərinə söykənir. DTT-də mübahisələr mahiyyətcə yerinə yetirilməmiş öhdəliklərlə bağlıdır. DTT üzvləri razılaşırlar ki, əgər onlar üzv ölkələrin DTT-nin ticarət qaydalarını pozduqlarına inanırlarsa, birtərəfli tədbirlər görmək əvəzinə, mübahisələrin həlli üçün çoxtərəfli sistemdən istifadə edəcəklər. Bu, razılaşdırılmış prosedurlara riayət etmək və qərarlara hörmət etmək deməkdir (Brodies, 2000: 20).

Köhnə GATT çərçivəsində mübahisələrin həlli proseduru mövcud idi, lakin onun müəyyən qrafikləri yox idi, qərarların qarşısını almaq daha asan idi və bir çox işlər uzun müddət nəticəsiz olaraq davam edirdi. Uruqvay Raundu prosedurda daha aydın müəyyən edilmiş mərhələlərlə daha strukturlaşdırılmış bir proses təqdim etdi. Prosedurun müxtəlif mərhələlərində müəyyən edilmiş çevik son tarixlərlə, işin həlli üçün lazım olan müddət üçün daha çox nizam-intizam tətbiq etdi. Mübahisələrin həlli üzrə prosedur və qaydalar haqqında Razılaşmada (Understan- ding on Rule and Prosedures Governing Settlement of Disputes) vurğulanır ki, DTT-nin səmərəli fəaliyyət göstərməsi üçün təcili nizamlanma vacibdir. O, mübahisələrin həlli zamanı əməl edilməli olan prosedurları və cədvəli kifayət qədər təfərrüatlı şəkildə müəyyən edir. Bir halda birinci qərardadın çıxarılmasına qədər bütün hüquqi vasitələrdən istifadə olunur və bütün mərhələlərdən keçirsə, o, adətən təxminən bir ildən çox çəkməməlidir - işdən şikayət verildiyi təqdirdə 15 ay. Razılaşdırılmış vaxt məhdudiyyətləri çevikdir və əgər iş təcili hesab edilirsə (məsələn, tez xarab olan mallar iştirak edirsə) o, mümkün qədər sürətləndirilir (Jackson, 2000: 20).

Uruqvay raundu razılaşması məğlub olan ölkənin qərarın qəbuluna mane olmasını qeyri-mümkün etdi. Əvvəlki GATT proseduruna əsasən, qərarlar yalnız konsensus yolu ilə qəbul edilə bilərdi, yəni bir etiraz qərara mane ola bilər. İndi konsensus olmadığı təqdirdə qərarlar avtomatik olaraq qəbul edilir və qərarı rədd etmək – qərarı bloklamaq istəyən hər bir ölkə bütün digər DTT üzvlərini (işdəki rəqibi də daxil olmaqla) öz mövqeyinin haqlı olduğuna inandırmalıdır (Prost, 2000: 20).

Tənzimetmə prosedurlarının müxtəlifliyinə baxmayaraq, bütün mübahisələrə mübahisələrin həlli üzrə orqanda baxılır. Mübahisələrə baxılması mexanizmi iki mərhələdə mübahisələrin həlli üzrə orqan tərəfindən yaradılan panel çərçivəsində və Apellyasiya üzrə orqan səviyyəsində həyata keçirilir. Mübahisələrin həlli orqanı işə baxılması üçün ekspertlərdən ibarət "panel" yaratmaq və panellərin nəticələrini və ya apellyasiya şikayətinin nəticələrini qəbul etmək və ya rədd etmək səlahiyyətinə malikdir. O, qərarların və tövsiyələrin icrasına nəzarət edir və bir ölkə qərara əməl etmədikdə "qisas almağa" icazə vermək səlahiyyətinə malikdir (Gabrielle Marceau, 2000: 20).

Birinci mərhələ: konsultasiya (60 günə qədər). Hər hansı digər hərəkətə keçməzdən əvvəl mübahisəli t ərəflər bir-biri ilə danışmalıdırlar ki, fikir ayrılıqlarını özləri həll edə bilsinlər. Əgər bu uğursuz olarsa, onlar DTT-nin baş direktorundan vasitəçilik etməsini və ya hər hansı başqa yolla kömək göstərməsini xahiş edə bilərlər.

İkinci mərhələ: panel (bir panelin təyin edilməsi üçün 45 günə qədər, üstəgəl panelin yekunlaşması üçün 6 ay). Konsultasiya mərhələsi uğursuz olarsa, iddiaçı ölkə panelin təyin edilməsini xahiş edə bilər. "Müttəhimlər kürsüsündə olan" ölkə panelin yaradılmasına bir dəfə mane ola bilər, lakin əgər panelin təyin edilməsinə qarşı konsensus yoxdursa Mübahisələrin Həlli Orqanının bununla bağlı təşkil etdiyi ikinci iclasda panelin təyin edilməsinə cavabdeh dövlət tərəfindən etiraz edilə bilməz.

Rəsmi olaraq, panel Mübahisələrin Həlli Orqanına qərarlar və ya tövsiyələr verməkdə kömək edir. Lakin panelin hesabatı yalnız Mübahisələrin Həlli Orqanında konsensusla rədd edilə bildiyi üçün onun nəticələrini ləğv etmək çətindir. Panelin nəticələri istinad edilən razılaşmalara əsaslanmalıdır.

Panelin yekun hesabatı adətən altı ay ərzində mübahisə tərəflərinə təqdim edilməlidir. Təcili hallarda, o cümlədənmübahisə predmeti tez xarab olan mallara aid olduqda, bu müddət üç aya qədər qısaldılır.

Paneldə mübahisələrə baxılması əsasən 9 mərhələdən ibarətdir. Müvafiq mərhələləri qısaca olaraq aşağıdakı formada təsvir etmək olar.

- İlk iclasdan əvvəl: mübahisədə iştirak edən iddiaçı tərəf öz iddiasını, cavab tərəf isə idddianı təkzib edən etirazını yazılı şəkildə panelə təqdim edir.
- Birinci dinləmə: iddiaçı və cavabdeh ölkə (və ya ölkələr) və eləcə də mübahisədə maraqlı olduqlarını elan edən üçüncü tərəflər panelin ilk iclasında öz mövqelərini və iddialarını bildirirlər.
- Təkziblər: iştirakçı ölkələr panelin ikinci iclasında yazılı təkzibləri və şifahi arqumentlər təqdim edirlər.
- Ekspertlər: əgər bir tərəf elmi və ya digər texniki məsələləri qaldırarsa, panel məsləhətçi hesabat hazırlamaq üçün ekspertlərlə məsləhətləşə və ya ekspert qrupu təyin edə bilər.
- Birinci layihə: panel öz hesabatının təsviri (fakt və arqument) hissələrini iki tərəfə təqdim edir və onlara şərh vermək üçün iki həftə vaxt verir. Bu hesabat panelin gəldiyi nəticələri özündə ehtiva etmir.
- Aralıq hesabat: Bundan sonra panel öz nəticələri də daxil olmaqla aralıq hesabatı hər iki tərəfə təqdim edir və onlara aralıq hesabatı nəzərdən keçirmək üçün bir həftə vaxt verir.
- Baxış: Baxış müddəti iki həftədən çox olmamalıdır. Həmin müddət ərzində panel hər iki tərəflə əlavə görüşlər keçirə bilər.
- Yekun hesabat: Yekun hesabat iki tərəfə təqdim edilir və üç həftə sonra bütün DTT üzvlərinə paylanır. Panel mübahisəli ticarət tədbirinin DTT razılaşmasını və ya öhdəliyini pozduğuna qərar verərsə, o, tədbirin DTT qaydalarına uyğun aparılmasını tövsiyə edir. Panel bunun necə edilə biləcəyi barədə öz təklifini irəli sürə bilər.
- Hesabatın qərara çevrilməsi: Konsensus onu rədd etmədiyi halda, hesabat 60 gün ərzində Mübahisələrin Həlli Orqanının qərarı və ya tövsiyəsi olur. Hər iki tərəf hesabatdan apellyasiya şikayəti edə bilər (bəzi hallarda isə hər iki tərəf şikayət edir) (Matthias Oesch, 2000: 20).

Mübahisənin hər iki tərəfi panelin qərarından şikayət edə bilər. Tərəflərin apellyasiya şikayətləri qaydaların müvafiq bəndinə əsaslanmalıdır. Apellyasiya şikayəti mövcud sübutların yenidən nəzərdən keçirilməsi və ya yeni məsələlərin araşdırılması ilə bağlı ola bilməz.

Hər bir müraciət Mübahisələrin Həlli Orqanı tərəfindən yaradılan və DTT-yə üzvlük dairəsini geniş şəkildə təmsil edən daimi yeddi üzvdən ibarət Apellyasiya Orqanının üç üzvü tərəfindən dinlənilir. Apellyasiya orqanının üzvlərinin səlahiyyət müddəti dörd ildir. Onlar hüquq və beynəlxalq ticarət sahəsində tanınmış, heç bir hökumətlə əlaqəsi olmayan şəxslər olmalıdırlar. Apellyasiya panelin qərarın qüvvədə saxlanılması, dəyişdirilməsi və ya ləğv edilməsi barədə hesabat çıxara bilər. Normalda apellasiya mərhələsində müraciətlərə baxılma müddəti 60 gündür, istisna hallarda bu müddət 90 günə qədər uzadıla bilər (Oesch, 2000).

Dünya Ticarət Təşkilatı çərçivəsində Mübahisələrin həlli üzrə Orqanın qərar və tövsiyələrinin dərhal və tez bir zamanda yerinə yetirilməsi Təşkilatın bütün üzvlərinin xeyrinə beynəlxalq iqtisadi mübahisənin effektiv həllinin tənzim edilməsinə yönəlib. Mübahisələrin həlli üzrə Orqan beynəlxalq iqtisadi mübahisələrin tənzimlənməsi üzrə qəbul edilən qərarın icrasına nəzarət funksiyasını da həyata keçirir. İstər jüri. istərsə də Apellyasiya Orqanı tərəfindən məruzənin qəbul edilməsindən sonra 30 gün ərzində Mübahisələrin həlli üzrə Orqan müşavirə çağırır. Əgər qərarın dərhal icra olunmasının mümkünsüzlüyü müəyyən edilərsə, Mübahisələrin həlli üzrə Orqan qərarın icra edilməsi üçün “ağlabatan müddət” müəyyən edir. Əgər müvafiq tərəf “ağlabatan müddət” rejiminə əməl etməzsə, onda həmin tərəflər qarşılıqlı qəbul edilən kompensasiyaları, məsələn, iddiaçı üçün xüsusi maraq kəsb edən tarif güzəştlərinin tətbiq edilməsini müəyyən etmək üçün iddiaçı ilə danışıqlara getməlidir. Əgər 20 gün ərzində kompensasiyaların tətbiq edilməsi barədə razılıq əldə edilməzsə, iddiaçı tərəf Mübahisələrin həlli üzrə Orqandan Dünya Ticarət Təşkilatı sazişləri ilə cavabdehə münasibətdə təqdim edilmiş güzəştlərin və ya öhdəliklərin icra edilməsinin dayandırılmasını tələb edə bilər. Əgər iddiaçının tələbləri konsensus əsasında Mübahisələrin həlli

üzrə Orqan tərəfindən rədd edilməzsə, müəyyən olunmuş "ağlabatan müddət" bitdikdən sonra müvafiq orqan iddiaçı tərəfindən müvafiq tədbirlərin görülməsini sanksiyalaşdırmalıdır.

Göründüyü kimi DTT-nin Mübahisələrin Həlli Orqanı təşkilat çərçivəsində mübahislərin həlli üzrə icraedici və nəzarətedici orqan rolunu oynayır.

## Nəticə

Dünya Ticarət Təşkilatının mübahisələrin həlli sistemi qaydalara əsaslanan çoxtərəfli ticarət sisteminin ən mühüm elementlərindən biridir. DTT-nin digər beynəlxalq sistemlərdən əsas fərqi onun tərəfindən qəbul edilmiş qərarların məcburi xarakter daşımasından ibarətdir. Müvafiq araşdırmanın nəticələri Azərbaycanın DTT-na üzv olmaq yolunda atdığı addımlara böyük töhfə olacaqdır. Belə ki, araşdırma nəticəsində mübahisələrə baxılması prosesi, xüsusilə də, qərarların məcburi icra edilməsi mexanizmi, edilmədiyi təqdirdə DTT üzvü olacaq Azərbaycanı gözləyən sanksiyalar öncədən müəyyənləşdirilərək, qanunvericiliyin DTT sazişlər paketinə uyğunlaşdırılması prosesləri sürətləndirilə bilər.

## Ədəbiyyat

1. Key issues in WTO: Dispute Settlement. (2000). The first ten years. Edited by Yerxa and Bruce Wilson. Cambridge.
2. Marceau, G. (2000). "Consultations and the panel process in the WTO dispute settlement system". Cambridge.
3. Sadıqov, Ə. (2008). Beynəlxalq İqtisadi Hüquq, 389 s.
4. Bello, J. The WTO Dispute Settlement Understanding: Less is more (American Journal of International Law), 90 p.
5. Yerxa, R. (2000). "The power of the WTO dispute settlement system". Cambridge.
6. Abi-Saab, G. (2000). "The WTO dispute settlement and general international law". Cambridge.
7. Peter Van Den Bossche. (2000). "The making of the 'World Trade Court": the origins and development of the Appellate Body of the World Trade Organization". Cambridge.
8. Brodies, A. (1984). The Convention on the Settlement of Insestment Disputes Between States and Nationals of Other States V ICSID Review. Vol 2. № 7, p.66-73.
9. Jackson, J. The WTO Dispute Settlement Understanding; Misunderstandings on the Nature of the Legal Obligation /American Journal of International Law. v.90
10. Prost, O. (2000). "Confidentiality issues under the DSU: fact-finding process versus confidentiality". Cambridge.
11. Oesch, M. (2000). "Standards of review in WTO panel proceedings". Cambridge.

Göndərilib: 13.02.2023 Qəbul edilib: 22.04.2023